UOT 331.526

*Əlizamin Əli oğlu QULİYEV*
*Azərbaycan Texniki Universitetinin doktorantı*

# MƏŞĞULLUQ VƏ ÖZÜNÜMƏŞĞULLUQ: FORMALAŞMANIN KONSEPTUAL MƏSƏLƏLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** məşğulluq və özünüməşğulluq: formalaşmanın konseptual məsələlərini araşdırmaq, həmçinin məşğulluq və özünüməşğulluq kimi anlayışların formalaşması prosesinin xronoloji təhlili məqsədilə mənbələrin icmalının verilməsidir.

**Tədqiqatın metodologiyası**. - Əmək bazarının və məşğulluğun elmi- nəzəri problemləri iqtisad elminin klassikləri tərəfindən davamlı olaraq tədqiq olunmuşdur. Klassik siyasi iqtisadın nümayəndələri (A.Smit, D.Rikardo, J.B. Sey, A.Marşall, L.Balras, C.M.Keyns və başqaları) əmək münasibətlərini tədqiq edərkən məşğulluq problemlərinə daim diqqət yetirmişlər.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - anlayışların müəyyən edilməsinə fərqli yanaşmalar müqayisə edilmişdir. Əmək bazarı və onun inkişafının bəzi meyilləri xarakterizə olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - Əmək bazarının və məşğulluğun strukturunu şərtləndirən əsas amillər aşkar edilmişdir. Məşğulluğun ümumi sistemində və sosial-iqtisadi inkişafda özünüməşğulluğun yeri müəyyən edilmişdir. Özünüməşğullar tərkibinə daxil olan subyektlər müəyyən edilmişdir. Özünüməşğulluğun inkişafı problemləri müxtəsər xarakterizə edilmişdir.

***Açar sözlər: anlayış, məşğulluq sistemi, klassiklər, əmək bazarı, məşğulluğun növləri, özünüməşğulluq, amillər, sahibkarlıq.***

## *Giriş*

İnsanın məqsədyönlü əmək fəaliyyəti, cəmiyyətin mövcudluğunun həlledici şərtidir. Əmək bazarının tədqiqi və məşğulluğun mövcud vəziyyətinin səciyyələndirilməsi məlumatları və müasir dövrün reallıqları məşğulluq və özünüməşğulluq problemlərinin yüksək aktuallığına dəlalət edir. Məşğulluq və özünüməşğulluğun formalaşmasının konseptual əsaslarının araşdırılması əmək bazarında müasir meyillərin qiymətləndirilməsi baxımından zəruridir. Eyni zamanda, unutmaq olmaz ki, milli iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən aqrar sahədə özünüməşğulluğun dövlətin məşğulluq siyasətində yeri və rolu, məşğulluq növləri arasında seçimdə özünüməşğulluğa yönəlik proseslər kifayət qədər araşdırılmamışdır.

**Konseptual əsaslar və nəzəri-metodoloji yanaşmalar**

Əmək bazarının və məşğulluğun elmi- nəzəri problemləri iqtisad elminin klassikləri tərəfindən davamlı olaraq tədqiq olunmuşdur. Klassik siyasi iqtisadın nümayəndələri (A.Smit, D.Rikardo, J.B. Sey, A.Marşall, L.Balras, C.M.Keyns və başqaları) əmək münasibətlərini tədqiq edərkən məşğulluq problemlərinə daim diqqət yetirmişlər. Adam Smitə görə sərvət istehsal prosesində yaranır və onun mənbəyi insan əməyidir. “Hər bir xalqın illik əməyi ilkin fondu olub, ona mövcudluq və rahat həyat üçün zəruri olan bütün məhsulları çatdırır” [1, s. 81]. Tam məşğulluğu bazar iqtisadiyyatının norması hesab edən Adam Smit, bunun bazarın görünməyən əli ilə təmin edildiyini göstərirdi.

David Rikardo işçinin normal təkrar istehsalı üçün zəruri olan fizioloji minimuma müvafiqliyini nəzərdə tutan “əməyin təbii qiyməti” anlayışından istifadə etmişdir. O hesab edirdi ki, əməkhaqqında istənilən artım, iş qüvvəsi təklifini artırmaqla, əməkhaqqı səviyyəsində azalma meylini şərtləndirir [2]. Əməyi məhsul hesab edən Jan Batist Sey hesab edirdi ki, əməyin başqa məhsula mübadilə edilməsinə tələb yaranır. Bu tezisdən çıxış edərək Sey J.B. göstərirdi ki, əmtəənin əmtəəyə mübadiləsi öz-özünə alqı – satqı arasında müvazinət yaradır və beləliklə, bazarda əməyə tələb və təklif arasında müvazinət əldə edilir. Bu zaman, Sey J.B. özünün istehsalın üç amil nəzəriyyəsindən şıxış edirdi. Həmin nəzəriyyəyə görə dəyərin yaradılmasında əmək, kapital və torpaq bərabər hüquqlu iştirakçılardır. Həmin içtirakçılar müvafiq olaraq əməkhaqqının, mənfəətin və

rentanın mənbəyidir [3].

Alfred Marşala görə təkmil rəqabət şəraitində əmək bazarı tam məşğulluq halına müvafiq olan müvazinətə can atır. Odur ki, təkmil rəqabət şəraitində bazar iqtisadiyyatı dövlətin müdaxiləsi olmadan əmək bazarında məşğulluğu təmin etmək iqtidarındadır [4]. Marşal A. hesab edirdi ki, məşğulluğun qeyri-daimiliyi cəmiyyəti narahat etməlidir. Məşğulluğun təmin edilməsi üçün tələb və təklif tənzimlənməlidir. Tələbin son tənzimləyicisi isə istehlak tələbidir ki, o da bazar tərəfindən öz-özünə tənzimlənə bilər. Marşal A. neoklassik nəzəriyyənin digər baniləri kimi (Oygen fon Bem-Baverk, Menqer fon Vizer, Mari Espri Leon Valras) aşağıdakı müddəalara əsaslanırdı: bazar iqtisadiyyatı öz-özünə tənzimlənir və müvazinətin istənilən pozulması tələb, təklif və rəqabətin qarşılıqlı təsirindən müstəqil surətdə aradan qaldırılır; təkmil rəqabət şəraitində uzunmüddətli işsizlik mümkün deyil, çünki əmək bazarında müvazinətin pozulması qiymətlərin və əməkhaqqı dərəcələrinin dəyişməsi nəticəsində öz-özünə tənzimlənir;uzunmüddətli özünütənzimləmə şəraitində dövlətin iqtisadiyyata müdaxiləsi üçün əsas yoxdur.

Məşğulluq nəzəriyyəsinə erkən neoklassik baxışları tamamlayan Artur Piqu özünün "İşsizlik nəzəriyyəsi" əsərində (1933) hesab edirdi ki, bazar iqtisadiyyatı prinsipcə müvazinətdədir [5]. Bu səbəbdən, onun üçün bütün istehsal amillərinin, o cümlədən əməyin tam istifadəsi səciyyəvidir. Əməyə tələbi faiz dərəcəsi ilə əlaqələndirən Piqu A., bu əlaqənin əməkhaqqı vasitəsi ilə baş verdiyini göstərirdi. Piqu A. hesab edirdi ki, əməkhaqqının aşağı düşməsi məşğulluğu artıra, faiz dərəcəsini aşağı sala bilər. Bu isə öz növbəsində investisiyaları təşviq etməklə, məşğulluq səviyyəsini yüksəldə bilər. Bazar iqtisadiyyatı şəraitində işsizliyin səbəbini Piqu A., daxili iqtisadi amillərlə deyil, xarici təsirlə (xarici effektlə) bağlayırdı. Xarici effektlərin müxtəlif növləri friksion, struktur və könüllü işsizlik yarada bilər. Sonrakı, daha məşhur əsərlərində [6], o əmək bazarında müvazinət və məşğulluğa dair mülahizələrini az-çox dəqiqləşdirsə də, əmək bazarına dövlət müdaxiləsini zəruri hesab etmirdi.

Karl Marksın məşğulluq nəzəriyyəsi onun aşkar etdiyi əhali sakinləşməsi qanununa əsaslanır. Bu qanun Tomas Maltusun əhali sakinləşməsi haqqında daim mübahisə obyekti olmuş nəzəriyyəsinin tənqidi üzərində əsaslandırılmışdır [7]. Ərzaq məhsulları istehsalının hesabi, əhali artımının isə həndəsi silsilə üzrə artması kimi müddəalara əsaslanan Maltus əhali artıqlığı anlayışını ortaya qoymuşdur. O hesab edirdi ki, əməkhaqqının azalaraq yaşayış minimumuna yaxınlaşması əhali artıqlığına dəlalət edir. Artıq neçə onilliklərdir ki, müxtəlif ölkələrin iqtisadçıları T.Maltusun əhali nəzəriyyəsinin reallığı əks etdirmədiyini israrla qeyd edirlər. Onlar hazırda da hesab edirlər ki, bu nəzəriyyə əmək bazarında baş verən prosesləri, o cümlədən müasir dövrdə doğum və ölümün dinamikası arasında demoqrafik əlaqəni, inkişaf etmiş ölkələrdə təbii artımın vəziyyətini, əhalinin "qocalmasının" səbəb və nəticələrini izah etmək iqtidarında deyildir [8, s. 70-71].

Məşğulluq haqqında marksist nəzəriyyə maltusçuluğun istinad etdiyi münbitliyin azalması və əhali sakinliyi barədə təbii qanunları inkar edir. Karl Marksın məşğulluq nəzəriyyəsinə görə kapital yığımı prosesində işçi qüvvəsinə və kapitala tələb artır. Bu prosesdə işçi qüvvəsinə tələbin artım tempi kapitala tələbin artım tempindən geri qalır. Səbəb elmi-texniki tərəqqi sayəsində əmək məhsuldarlığının yüksəlməsi və daha az işçinin tələb olunmasıdır. Bu meyil (qanun) işsizliyin yaranmasına səbəb olur.

Keyns Con Meynard hesab edirdi ki, dövlət əmək bazarının tənzimləyicisi rolunu oynayır. Belə ki, bazar iqtisadiyyatında tam məşğulluğu təmin edən mexanizm yoxdur. Bu isə nəticə etibarı ilə istehsalın aşağı artım templərini, istehsal güclərinin tam yüklənməməsini, böhran hallarını və işsizliyi şərtləndirir. Dövlət fəal fiskal siyasət yürüdərək məcmu tələbi dəyişməklə bazar müvazinətini bərpa etmək imkanına malikdir. C. Keynsə görə məşğulluq səviyyəsinə, əməkhaqqı vahidlərində ölçülən səmərəli tələbin dinamikası təsir edir [9]. C. Keynsin və onun ardıcıllarının indiyə qədər inkişaf etdirdiyi Keyns nəzəriyyəsinə görə müasir bazar mexanizmi məşğulluğu öz-özünə tənzimləyə bilməz [məsələn, bax: 10]. Maraqlıdır ki, bunun başlıca səbəbləri kimi əməkhaqqının qeyri-elastikliyi və həmkarlar ittifaqlarının mövcudluğu qeyd olunur. Məşğulluğun dövlət tərəfindən tənzimlənməsinə ehtiyac vardır.

Əməyin qiymətinin qeyri-elastikliyi və onun artmağa meyilli olması monetaristlərin, o cümlədən Milton Fridmen [11], Edmund Felpsin [12] əmək bazarı, o cümlədən məşğulluq problemlərinə münasibətini müəyyən edən əsas ilkin müddəalar olmuşdur. Onlar hesab edirlər ki, əmək bazarı çevik və rəqabətlidir, burada müvazinət işsizliyin təbii səviyyəsində təmin olunur, dövlət əmək bazarını kredit-pul siyasəti aləti ilə tənzimləyir. Məşğulluğun "təbii səviyyə"dən kənarlaşması yalnız qısamüddətli ola bilər. Məşğulluq səviyyəsinin müvazinət halından yüksək olması inflyasiyanı sürətləndirirsə, aşağı olması sürətli deflyasiyaya səbəb ola bilər. Neoklassik sintez məktəbinin nümayəndəsi kimi Pol Samuelson göstərirdi ki, əmək bazarının fəaliyyət səmərəliliyini yüksəltmək üçün bazar və dövlət tənzimlənməsi eyni vaxtda və qarşılıqlı əlaqədə həyata keçirilməlidir [13].

Azərbaycanın iqtisadçı alimləri əmək bazarının formalaşması və inkişafı məsələlərini tədqiq etmişlər və bu istiqamətdə araşdırmalar davam edir. Bazar münasibətlərinin formalaşması və inkişafının mürəkkəb və ziddiyyətli keçid dövrünü keçmiş Azərbaycanın, ümumilikdə postsovet məkanı ölkələrinin təcrübəsinin təhlili aşağıdakı fikrin əsaslı olduğunu söyləməyə imkan vermişdir.

"Əmək bazarının formalaşması iqtisadi inkişafın bazar modelinə keçilməsi şəraitində ən mürəkkəb problemlərdən biri sayılır. Son vaxtlarda iqtisadi ədəbiyyatlarda məcmu iş qüvvəsinin keyfiyyət xarakteristikasının yüksəldilməsi, iş qüvvəsindən istifadənin səmərəliliyinin artırılması, onun sahə və ərazi mobilliyinin stimullaşdırılması əmək bazarının yaranması ilə əlaqələndirilir. Əmək bazarının xüsusiyyəti onda alqı-satqı obyektinin muzdlu işçilərin iş qüvvəsindən istifadə etmək hüququndan ibarət olub, adamların bütün psixofizioloji və sosial tələbatlarının nəzərə alınması zərurətini özündə əks etdirir" [14, s.154]. Bu yanaşmada diqqəti cəlb edən cəhət əmək bazarının səciyyələndirilməsində iqtisadi, demoqrafik amillərlə yanaşı psixofizioloji və sosial tələbatların nəzərə alınması zəruriliyinin önə çəkilməsidir.

Professor T.Quliyev son əsərlərinin birində əmək bazarına münasibət bildirərkən muzdlu əmək və özünüməşğulluq məsələlərinə vahid kontekstdə baxmışdır. Bu yanaşma, yaxın perspektivin tələblərini nəzərə almaqla yanaşı, yaxın keçmişin reallıqda əks olunan cəhətlərini də ehtiva etmişdir. Postsovet məkanında həmin reallığın xarakterik cəhətlərindən biri, ictimai faydalı əməkdən yayınmağa görə cəzalandırmanı nəzərdə tutan ümumi məşğulluq siyasətindən imtina edilməsi və sahibkarlığa keçiddir. İnsanların böyük bir qisminin yaddaşında mərkəzləşdirilmiş iqtisadiyyat şəraitində özünüməşğulluğun nəinki qanunvericilikdə nəzərə tutulmadığı, hətta kölgə iqtisadiyyatı elementi hesab edilməsi qalmaqdadır. Görmək çətin deyildir ki, postsovet məkanı ölkələrində məşğulluq siyasətində bu sərt dönüş, əmək bazarındakı problemləri daha da əyaniləşdirmişdir. "Əmək bazarı bazar sisteminin mühüm tərkib hissəsi, strukturu olmaqla muzdlu əmək, işçi qüvvəsi təklifi, iş qüvvəsinin alqı-satqısı ilə bağlı olan, bu sferada təzahür edən sosial, iqtisadi və hüquqi münasibətlər sistemidir. Lakin məşğulluq muzdlu forma daşımadıqda, yəni işçinin öz şəxsi təşəbbüsü formasında olduqda (xüsusi sektorda, kölgəli iqtisadiyyatda, qarışıq məşğuliyyət) yuxarıdakı münasibət başqa xarakter alır" [15, s.215].

Müasir əmək bazarı üçün əlaqələrin artması və genişlənməsi xarakterikdir. Burada müəssisədaxili və müəssisədənkənar əmək münasibətlərinə fərqli yanaşmalar, əmək bazarının daxili və xarici kimi fərqləndirilməsini şərtləndirən əhəmiyyətli amillərdəndir. İqtisadi fəaliyyət subyektinin kənar mühitlə əlaqələrində əmək münasibətlərinin əhəmiyyəti də bu təsnifatda az rol oynamır. Ümumilikdə, ötən əsrin son onilliklərində Qərb ölkələrinin iqtisadi ədəbiyyatında əmək bazarının daxili (ilkin) və xarici (ikinci) bazarlar kimi fərqləndirilməsinə rast gəlinir. Əlbəttə, həmin təsnifat təkcə və başlıca olaraq müəssisədaxili və xarici əlamətinə görə aparılmır. Əmək bazarının daxili (ilkin) və xarici (ikinci) bazarlar kimi fərqləndirilməsi prosesində əsas göstəricilər kimi aşağıdakılar götürülür: əməkhaqqının səviyyəsi; iş yerinin daimiliyi; karyera yüksəlişi; əmək şəraiti.

Bir qayda olaraq daxili əmək bazarı sahə iqtisadiyyatında struktur dəyişikliklərin tələblərinə, xarici əmək bazarı isə istehsalın tələblərinə uyğunlaşır. Daxili əmək bazarında məşğulluq səviyyəsi xarici əmək bazarına nisbətən daha yüksək olur. Məşğulluğun strukturuna gəldikdə də vəziyyət, bəzi istisnalarla daxili əmək bazarının xeyrinədir. Bu baxımdan, aşağıdakı mövqe ilə razılaşma-

maq çətindir. “Daxili əmək bazarından fərqli olaraq, xarici əmək bazarında işsizliyin yaranması üçün daha geniş zəmin vardır. Xarici əmək bazarından fərqli olaraq, daxili əmək bazarında isə yalnız zəruri hallarda kompaniya və müəssisələrin rəhbərləri işçilərin əməkhaqlarını tam saxlamaqla, onların yenidən peşə hazırlığı keçməsi, məşğulluqlarına təminat yaradılması və mövcud əmək potensialından səmərəli istifadə edilməklə işçilərin həmin müəssisə və firmalara işə qəbul olunması üçün geniş imkanlar yaradırlar” [14, s.143].

Məşğulluq anlayışının sosial və iqtisadi aspektlərdə dəqiqləşdirilməsi, onun dinamikada səciyyələndirilməsi baxımından Azərbaycan tədqiqatçılarının mövqeyi, ilk növbədə onun hərtərəfli olması ilə fərqlənir. “Məşğulluq hər hansı fərd üçün sağlam həyat tərzi və gəlir mənbəyidir, iş yerinin olmasıdır. Məşğulluq potensial əməyin, əmək qabiliyyətinin reallaşması, insanın müəyyən, konkret əmək kooperasiyasında iştirakı deməkdir. Bu baxımdan məşğulluğun həm iqtisadi, həm də sosial təbiəti, məzmunu vardır. Məşğulluq həm də işçinin funksional, konkret peşə fəaliyyəti ilə bağlıdır. Məşğulluğa hər bir fərdin, işçinin fəaliyyəti, həm də məşğulluğun strukturu və formaları baxımından da yanaşmaq olar. İstər fərdi və istərsə də kollektiv baxımından məşğulluğu işsizliyin inkarı adlandırmaq olar” [15, s.178].

Məşğulluğun əmək prosesindən fərqləndirilməsində əsaslı yanaşma, konseptual məsələlərin əsaslandırılması və reallaşdırılmasında yanaşmaların birmənalı olmasına xidmət edir. Xüsusilə məşğulluq proseslərinin xronoloji baxımdan əmək proseslərindən əvvəl gəlməsi fikri diqqətəlayiqdir. Bu baxımdan aşağıdakı fikirlə razılaşmamaq çətindir. “Məşğulluq prosesində insanlar arasında yaranan münasibətlər sosial-iqtisadi xarakter daşımaqla, təkcə əmək prosesini deyil, həm də məşğulluq prosesinin özünün formalaşmasını əhatə edir. Məşğulluq zahirən əmək kimi təzahür etsə də, əməklə məşğulluq sinonim olmayıb bir-birindən fərqlənirlər. Belə ki, əgər əmək insanların şüurlu, məqsədəuyğun fəaliyyətidirsə, məşğulluq müəyyən iş yerlərində işçinin konkret əmək kooperasiyasına qoşulmaq üzrə mövcud olan ictimai münasibətdir. Əmək prosesi başlamazdan əvvəl məcmu işçilər iqtisadiyyatın sahələri arasında bölüşdürülməli və istehsal vasitələri ilə təmin olunmalıdırlar. Bu isə o deməkdir ki, məşğulluq münasibətləri əmək prosesindən qabaqda gedən prosesdir, onun sələfidir” [14, s.162]. Yuxarıda şərh edilən mövqeləri və müasir reallıqları nəzərə almaqla əmək bazarı anlayışına münasibətdə mövqeyimizi dəqiqləşdirək. Əmək bazarı onun subyektləri (işəgötürən və muzdlu işçi) arasında ictimai münasibətlərin dinamik sistemidir. Bu bazarda əməyin əməkhaqqına mübadiləsi baş verir. Əmək bazarında sosial-əmək münasibətləri kompleksində işə düzəlmə mexanizmi fəaliyyət göstərir, əməyin qiyməti və şəraiti barədə razılaşma əldə olunur.

Məşğulluğun əsasən aşağıdakı növləri fərqləndirilir: səmərəli, natamam, ikinci, dövri, mövsümi, ilkin, təkrar, özünüməşğulluq (müstəqil məşğulluq). Bu anlayışların müvafiq mənbələrdə kifayət qədər ətraflı şərh olunduğunu qeyd etmək lazımdır.Görmək çətin deyildir ki, məşğulluğun növlərində müxtəliflik, xeyli dərəcədə onun müvəqqəti növləri hesabına formalaşır. Özü də məşğulluğun həmin növləri arasında kəsişmə halları da az deyildir. Bu baxımdan, Azərbaycan Respublikasının qanunvericiliyində müvəqqəti məşğulluq anlayışına münasibət məqsədəuyğun olduğu qədər həm də diqqətəlayiqdir. Müvəqqəti məşğulluq – şəxsin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq mövsümi işlərə, bu Qanunla müəyyən edilmiş qaydada haqqı ödənilən ictimai işlərə cəlb edilməsi və ya əmək birjaları vasitəsilə müəyyən müddət ərzində ictimai faydalı fəaliyyətidir [16, maddə 1.1.14]. Bununla belə səmərəli və ya məhsuldar məşğulluq anlayışını dəqiqləşdirək. Səmərəli (məhsuldar) məşğulluq dedikdə istehsal və xidmət sahələrində ən yüksək səmərəliliyin əldə edildiyi məşğulluq nəzərdə tutulur.

Məşğulluğun daha geniş təsnifat əlamətlərinə, adətən aşağıdakılar aid edilir: iş vaxtının təşkili forması, status, iş yerlərinin və iş vaxtının təşkili forması, əmək fəaliyyətinin stabilliyi, hüquqi tənzimləmə forması. Sadalanan əlamətlər üzrə məşğulluğun təsnifatına nəzər salaq. İş vaxtının təşkili forması əlamətinə görə məşğulluq tam, natamam, görünən və görünməyən, görünməyən natamam, məcbiri, könüllü kimi fərqləndirilir. Deyək ki, görünməyən natamam məşğulluq anlayışı statistikada istifadə edilir. Görünməyən natamam məşğulluq əməkhaqqı və ya statistik

müayinələr vasitəsi ilə ölçülür. Status əlamətinə görə məşğulluq ilkin və ikinci məşğulluq kimi fərqləndirilir. İlkin və ikinci məşğulluq, müvafiq olaraq əsas və əlavə iş yerlərində fəaliyyəti nəzərdə tutur. İş yerlərinin və iş vaxtının təşkili forması əlaməti üzrə məşğulluq standart və qeyri-standart kimi təsnifləşdirilir. Qeyri-standart məşğulluğa mövsümi məşğulluq, özünüməşğulluq aid edilə bilər. Əmək fəaliyyətinin stabilliyi əlaməti üzrə məşğulluq daimi və müvəqqəti kimi fərqləndirilir. Hüquqi tənzimləmə forması əlaməti üzrə məşğulluq – leqal, qeyri-leqal, reqlamentləşdirilməmiş kimi təsnifləşdirilə bilər.

**Özünüməşğulluq: siyasət, seçim və problemlər**

Dövlətin məşğulluq siyasətində işsizliyin azaldılması üçün sosial, makroiqtisadi və məşğulluq istiqamətlərində tədbirlər kompleksi nəzərdə tutulur. Dövlətin məşğulluq siayətində sosial tədbirlər kompleksi, başqa sözlə, bir çox mənbələrdə göstərildiyi kimi işsizliyin azaldılması üçün həyata keçirilən sosial siyasətində məqsəd işsizlərin həyat səviyyəsini dəstəkləməkdir. Haqqında danışılan makroiqtisadi siyasət işsizliyi azaltmaq üçün büdcə-vergi və pul-kredit tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur. Fəal makroiqtisadi siyasət dövlət büdcəsi vəsaiti hesabına əməyə məcmu tələbin stimullaşdırılmasına yönəlmişdir. Məşğulluq sahəsində siyasət dedikdə işədüzəltmə və kadrların yenidən hazırlanması mərkəzlərinin yaradılması və yeni iş yerlərinin açılması başa düşülür.

“Məşğulluğun dövlət siyasəti özünü daha çox makrosiyasətdə təzahür etdirir. Məşğulluğun dövlət siyasəti özünü aşağıdakı istiqamətlərdə göstərir: 1. Maliyyə, vergi-büdcə, struktur siyasəti vasitəsilə işçi qüvvəsinə məcmu tələbatı çoxaltmaq; 2. Fəal məşğulluq siyasətini həyata keçirmək, bu məqsədlə prioritet sahələrdə mövcud iş yerlərini saxlamaq və yeni iş yerlərinin yaradılmasının investisiyalaşdırılması; 3. Milli istehsalçılar, sahibkarla əlverişli proteksiyalı siyasət irəli sürmək, kiçik sahibkarlığı himayə etmək; 4. Kiçik və orta şəhərlərdə yeni istehsal və xidmət sahələrinin inkişafına şərait yaratmaq; 5. İnsan kapitalına investisiya ayırmalarını çoxaltmaq, əhalinin keyfiyyət tərkibini yaxşılaşdırmaq; 6. Məşğulluq qanunu əsasında kompleks strateji proqram hazırlamaq; 7. Əmək münasibətlərinin, əməkhaqqının tənzimlənməsində kollektiv müqavilələrin rolunun artırılmasına dövlətin təsiri; 8. Qloballaşma şəraitində ölkə vətəndaşlarının beynəlxalq əmək miqrasiyasının milli əmək bazarının formalaşması və inkişafı ilə əlaqələndirmə siyasəti; 9. Əmək bazarının tələblərini nəzərə almaqla iqtisadi fəal əhalinin əmək, peşə fəaliyyət növünü dəyişməkdə onlara köməklik etmək; 10. Firma və şirkətlərin maliyyə-istehsal fəaliyyətinin sağlamlaşdırılmasına imkan yaratmaq” [15, s.179].

Məşğulluq əmək qabiliyyətli əhalinin iş yerləri ilə, istehsal vasitələri ilə birləşdirilməklə bölgüsündə yaranan məcmu münasibətləri əks etdirən iqtisadi kateqoriyadır. Azərbaycan Respublikasının qanunvericiliyində [16] özünüməşğulluq – şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi kimi (maddə: 1.1.15) təsbit edilmişdir. Həmin qanunda qarşıya qoyulmuş hədəflərlə bağlı məsələlər, o cümlədən, özünüməşğulluğun təşkili, vakansiya bankının yaradılması, peşə standartları üzrə minimum tələblərin müəyyən edilməsi öz əksini tapmışdır.

Özünüməşğulluğa üsütnlük verən işçi kateqoriyası bir neçə mərhələdə seçim etməlidir. Həmin mərhələlərdə müvəqqəti məşğulluğun aşağıdakı növləri müqayisəli təhlil edilərək seçim edilməlidir: 1) qısamüddətli və ya natamam iş günü ilə tam məşğulluq arasında, muzdlu və ya sərbəst məşğulluq, yaxud onların hər ikisinin kombinasiyası arasında seçim; 2) işsizlik və ya məşğulluq arasında seçim; 3) təhsil və ya peşə hazırlığı və məşğulluq arasında seçim; 4) ailə təsərrüfatında haqqı ödənilməyən fəaliyyət və fərdi (haqqı ödənilən) məşğulluq arasında seçim; 5) iş və pensiya arasında seçim [17, s.10-11]. Hazırda məşğulluğun növləri arasında seçimə innovasiyalı yanaşmalar da az deyil. Başqa sözlə, özünüməşğul olanlar qrupuna, muzdla işləməyənlər, yəni əməyinin qarşılığı ödənilmədən ailə təsərrüfatlarında çalışanlar, fərdi əmək fəaliyyəti ilə məşğul olanlar, istehsal kooperativlərinin üzvləri və sahibkarlıq fəaliyyəti göstərənlər aid olunur (şəkil 1).

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nda prioritet kimi (4.4.3) “əməkqabiliyyətli əhalinin dövlət büdcəsi vəsaiti hesabına sosial yardımlardan

və müavinətlərdən asılılığını azaltmaq məqsədilə passiv sosial müdafiədən (ünvanlı dövlət sosial yardımı) aktiv sosial müdafiəyə (əmək bazarına inteqrasiya) keçidi təmin edən özünüməşğulluq və ailə təsərrüfatlarının yaradılmasına dəstək tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi” göstərilir (18).




***Şəkil 1. Özünüməşğul əhali qrupuna aid olan subyektlər.***

Özünüməşğulluq iqtisadi kateqoriya kimi öz işini təşkil etməyə yönəlmiş əmək münasibətləri sistemidir. Bu halda hansı fəaliyyətlə məşğul olmaq, nə və kimin üçün istehsal etmək (kimə xidmət göstərmək) barədə qərarları müstəqil, başqa sözlə, bütün məsuliyyəti və riskləri öz üzərinə götürmək lazım gəlir. Əlbəttə, özünüməşğulluqda təkcə qeyd edilən istiqamətlərdə qərar qəbulu ilə kifayətlənmək mümkün deyil. Bu baxımdan, habelə aşağıdakı məsələlərin həlli məqsədilə əsaslandırılmış addımlar atılmalıdır: nəyin vasitəsi ilə istehsal etmək; satış və təchizat üzrə tərəfdaşların seçilməsi; hansı məbləğdə gəlir məqbuldur; özünüməşğulluq və sahibkarlıq arasında nisbətin müəyyən edilməsi; özünüməşğulluqla və ya sahibkarlıqla məşğul olmaq. Özünüməşğulluğun məqsədləri kimi öz əməyindən sərbəst və daha səmərəli fayda götürülməsi və daha geniş təşəbbüslər və yeniliklər üçün müstəqil qərar qəbul edilməsi qeyd edilməlidir. Qərb mənbələrində özünüməşğulluq və fərdi sahibkarlıq anlayışları arasında bir çox hallarda dəqiq hədd qoyulmur. Başqa sözlə, müvafiq xarici mənbələrdə həmin anlayışların sinonum kimi işlənməsi hallarına rast gəlinir [19]. Müəyyən mənada bu başadüşüləndir. Məsələ ondadır ki, həm özünüməşğul subyekt, həm də fərdi sahibkar sərbəst fəaliyyət göstərir, əsasən öz əməyinin məhsulunu (xidmətini) təklif edir, bir işəgötürənlə daimi müqavilə bağlamır və s. Digər insanları işə cəlb etməyə gəldikdə isə məhz bu məsələdə birmənalı yanaşmanın olmaması özünüməşğulluq və fərdi sahibkarlıq anlayışlarını hüquqi müstəvidə əlavə olaraq dəqiqləşdirməyi tələb edir.

Nəhayət, özünüməşğulluğun formalaşması və inkişafında qarşıya çıxan problemlərə müxtəsər nəzər salaq. İlk növbədə, həmin problemlər qismində normativ-hüquqi bazanın ilkin təşəkkül mərhələsində olması qeyd edilməlidir. Özünüməşğul subyektlərin hüquqi baxımdan müdafiəsinin zəif olması, digər problemlərin kəskinləşməsinə gətirib çıxara bilər. Bu baxımdan, bürokratik maneələrin artması özünü daha əyani şəkildə göstərir. Əlbəttə, bürokratik maneələrin heç də hamısı bilavasitə özünüməşğul subyektlərin hüquqi baxımdan müdafisiənin zəif olması ilə şərtlənməyə bilər. Bununla belə, özünüməşğulluqda bürokratik maneələrin və transaksiya xərclərinin əsas yollarından biri, məhz müvafiq normativ-hüquqi bazanın möhkəmləndirilməsi və təkmilləşdirilməsidir. Özünüməşğul subyektlərin iqtisadiyyatın qeyri-formal sektorundan formal sektoruna keçidinin çətinlikləri qarşıya çıxan əsas problemlərindən biridir. Təbii ki, bu halda əsas məsələ özünüməşğulluğun leqallaşdırılmasındakı çətinliklərin aradan qaldırılmasıdır. Özünüməşğulluğun formalaşması və inkişafında qarşıya çıxan problemlər qismində, habelə vergidən yayınma hallarının qarşısının alınması və ixtisas (peşə) hazırlığına xərclərin qarşılanması üçün səmərəli mexanizmin yaradılmasıdır.

### *Nəticə*

Əmək bazarı onun subyektləri arasında ictimai münasibətlərin dinamik sistemidir. Özünüməşğulluq bu sistemin mühüm tərkib hissəsidir. Özünüməşğulluq iqtisadi kateqoriya kimi öz işini təşkil etməyə yönəlmiş əmək münasibətləri sistemidir. Özünüməşğul olanlar qrupuna muzdla işləməyənlər, yəni əməyinin qarşılığı ödənilmədən ailə təsərrüfatlarında çalışanlar, fərdi əmək fəaliyyəti ilə məşğul olanlar, istehsal kooperativlərinin üzvləri və sahibkarlıq fəaliyyəti göstərənlər aid edilməlidir. Özünüməşğulluğun məqsədlərinə öz əməyindən sərbəst və daha səmərəli fayda götürülməsi və daha geniş təşəbbüslər və yeniliklər üçün müstəqil qərar qəbul edilməsi aid edilməlidir.

### ƏDƏBİYYAT


1. Смит, А. Исследование о природе и причинах богатства народов. Антология экономической классики: Петти, Смит, Рикардо. Москва, Эконом - Ключ, 1993. 475 с.
2. Рикардо, Давид. Начала политической экономии и налогового обложения. Москва, Эксмо, 2007, 960 с.
3. Жан-Батист, Сэй. Трактат по политической экономии. Фредерик Бастиа. Экономические софизмы. Экономические гармонии. Москва, Дело, 2000, 232 с.
4. Альфред, Маршалл. Принципы экономической науки Москва, «Прогресс» 1993, 594 с.
5. Arthur Cecil Pigou. Theory of Unemployment. Routledge, 2016, 348 с.
6. A. Pigou. The Economics of Welfare. Palgrave Classics in Economics, 2013, pp. 876
7. Мальтус Томас Роберт. Опыт о законе народонаселения Перевод П. А. Бибикова Воспроизводится по изданию: Мальтус Т.Р. Опыт о законе народонаселения. СПб., 1868. Москва, Директмедиа Паблишинг, 2008, 465 с.
8. Блауг, М. Экономическая мысль в ретроспективе. Москва, "Дело Лтд", 1994. 720 с.
9. Keyniz Con Meynard. Məşğulluq, mənfəət və pulun ümumi nəzəriyyəsi. Bakı, Qanun, 2001. 479 s.
10. Макконнелл, К., Брю, С. Экономикс. Москва, Инфра-М, 2007, 940 с.
11. Фридман Милтон. Капитализм и свобода. Москва, Новое издательство, 2016 г., 288 с.
12. Edmund, S. Phelps Microeconomic Foundations of Employment and Inflation Theory, W. W. Norton & Company (June 17, 1973), 446 pages
13. Пол, А. Самуэльсон, Вильям Д. Нордхаус. Микроэкономика. Москва, Вильямс,2008,752 с.
14. Muradov, Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı, Elm, 2004. 660 s.
15. Quliyev, T.Ə. İnsan resurslarının idarə edilməsi. Bakı, “Nağıl evi” şirkəti, 2013, 828 s.
16. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 iyun 2018-ci il. № 1196-VQ
17. Günther, Schmid. Transitional Labour Markets: A New European Employment Strategy. WZB Berlin Social Science Center. January 1998, pp. 57
18. 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
19. Самозанятость: драйвер экономики или нежелательное поведение? http:// bujet. ru / article /334551.php



***Ализамин Али оглы Гулиев***
***Докторант Азербайджанского Технического Университета***


## Занятость и самозанятость: концептуальные вопросы формирования


### *Резюме*

**Целью исследования** является предоставление сводки источников с целью изучения концептуальных вопросов занятости и самозанятости, а также хронологического анализа процесса формирования таких понятий, как занятость и самозанятость.

**Методология исследования** - Научно-теоретические проблемы рынка труда и занятости постоянно изучались классиками экономической науки. Представители классической политической экономии (А. Смит, Д. Рикардо, Дж. Б. Сей, А. Маршалл, Л. Балрас, К. М. Кейнс и др.) всегда обращали внимание на проблемы занятости при изучении трудовых отношений.

**Значимость исследования** – сравнивались разные подходы к определению понятий. Охарактеризован рынок труда и некоторые тенденции его развития.

**Оригинальность и научная новизна исследования** - Выявлены основные факторы, определяющие структуру рынка труда и занятости населения. Определено место самозанятости в общей системе занятости и социально-экономического развития. Выявлены субъекты, входящие в состав самозанятых. Кратко описаны проблемы развития самозанятости.

**Ключевые слова**: понятие, система занятости, классики, рынок труда, виды занятости, самозанятость, факторы, предпринимательство

***Alizamin Ali Guliyev***
***Doctoral student of Azerbaijan Technical University***

**Employment and self-employment: the conseptual isues of the formation**

***Summary***

**The aim of the study** is to provide a summary of sources for the purpose of studying the conceptual issues of employment and self-employment, as well as a chronological analysis of the process of formation of concepts such as employment and self-employment.

**Research methodology** - The scientific-theoretical problems of the labor market and employment have been constantly studied by the classics of economics. Representatives of classical political economy (A.Smith, D.Ricardo, J.B. Sey, A.Marshall, L.Balras, C.M. Keynes and others) have always paid attention to employment problems when studying labor relations.

Significance of the application of the research - different approaches to the definition of concepts were compared. The labor market and some trends in its development were characterized.

**Originality and scientific novelty of the research** - The main factors determining the structure of the labor market and employment have been identified. The place of self-employment in the general system of employment and socio-economic development has been determined. Subjects included in the composition of self-employment have been identified. The problems of self-employment development were briefly described.

***Key words: concept, employment system, classics, labor market, types of employment, self-employment, factors, entrepreneurship.***